DOI: https://doi.org/10.36719/2663-4619/114/84-88

**Şənay İsmayılova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0000-2580-6105
ismayilshenay94@icloud.com

# Qərb dünyasında əlillik və keçdiyi tarixi dövrlər

## Xülasə

Qədim dövr və Orta əsrlərdə Qərb dünyasında əlillərə qarşı mənfi düşüncə tərzi və tətbiqlər Sənaye İnqilabı və ondan sonrakı tarixi dövlərdə 20-ci əsrin ortalarına qədər davam etmişdir. Qədim dövrlərdə əlillərə qarşı münasibət daha çox qorxaraq, izoliasiyaya, ölümə məhkum edərək nəzərə çarpsada Sənaye dövrünün başlaması ilə dəyişən iş və həyat şərtləri, iş prosesində yaranan əlilliklərin sayının artması, əlilliyin kateqoriyalaşmasına səbəb olmuş və bununla yanaşı çətin istehsal formaları əlilləri yararsız hesab edərək əmək bazarından kənarlaşdırmış, lakin kapitalizmin inkişafı, I və II Dünya Müharibələri dövründə azalan işçi qüvvəsi əlillərin işçi kimi qəbul edilməsinə gətirib çıxarmış və dövlət dəstəyi ilə onların iş həyatına daxil edilməsi davam etdirilmişdir. Əlillərin keçdikləri bu çətin dövrlər və Ümumdünya İnsan Hüquqları Bəyannaməsi qəbul olunduqdan sonrakı dövr öz əksini tapmışdır. Ümumi olaraq mətn əlilliyin tarixi prosesdə necə qavrandığını, hansı mərhələlərdən keçdiyini və necə bir dəyişiklik yaşadığını aydın şəkildə göstərir.

***Açar sözlər:*** *əlillik, Qərb dünyası, yanaşma, Əlil Hüquqları Hərəkatı*

**Shenay Ismayilova**
Nakhchivan State University
https://orcid.org/0009-0000-2580-6105
ismayilshenay94@icloud.com

# Disability in the Western World and its Historical Phases

## Abstract

In ancient times and the Middle Ages, negative perceptions and practices towards people with disabilities in the Western world continued through the Industrial Revolution and subsequent historical periods until the mid-20th century. In ancient times, attitudes towards people with disabilities were primarily characterized by fear, isolation, and even condemnation to death. However, with the onset of the Industrial Age, changing work and living conditions led to an increase in disabilities arising from work processes, resulting in the categorization of disabilities. Additionally, difficult production methods deemed people with disabilities unfit for labor, excluding them from the job market. However, with the development of capitalism and the decline in the workforce during World War I and World War II, people with disabilities and the poor began to be accepted as workers, and state-supported efforts to integrate them into the workforce continued. The difficult periods that disabled people go through has found its reflection after the adoption of the Universal Declaration of Human Rights.

Overall, the text clearly illustrates how disability has been perceived throughout history, the stages has gone through, and the changes has undergone.

***Keywords:*** *disability, Western world, approach, Disability Rights Movement*

## Giriş

Əlillik yeni bir anlayış deyil və əlilliyi olan insanların sayının artması ilə meydana çıxmayıb. Əksinə, əlillik insanlığın mövcud olduğu qədər qədim bir anlayışdır. Əlilləri, onların cəmiyyətdəki rollarını və öz mədəni xüsusiyyətlərini əhatə edən tarix yazıçılığının böyük bir hissəsini "gizli tarix"


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

kimi qəbul etmək yanlış olmazdı. İnsan tərəfindən yazılmış tarixdə əlillik uzun müddət ərzində mədəni bir quruluş kimi deyil, daha çox fərdi bir fəlakət, kədərli və aşağılayıcı bir vəziyyət və ya bir damğa kimi qəbul edilmişdir (Jaeger, Bowman, 2005, p. 9).

**Qədim və orta əsrlər dövrü**

**Tədqiqat**

Tarixi dövrlər ərzində mədəniyyətlərarası münasibətlərin araşdırılması cəmiyyətin bu insanlara dair baxışlarının və onlarla rəftarının nə homogen, nə də statik olmadığını göstərir. Qədim Yunan və Roma mədəniyyətlərində əlilliyi və xəstəliyi olan şəxslər ümumiyyətlə xaric edilmiş və zəif hesab edilmişdir. Lakin bəzi Qədim Misir kimi cəmiyyətlərdə əlilliyi olan şəxslərə qulluq edildiyini göstərən tapıntılar mövcuddur.

Orta əsrlərdə əlillik insanın və ya onun əcdadlarının günahına və ya səhv davranışına görə Tanrı tərəfindən verilən bir cəza kimi qəbul edilir, digərləri isə əsrlər boyunca əlilliyi şeytanın işi kimi görürdülər. Əlillik fərdin uğursuzluğu, qüsuru və ya nöqsanı hesab olunurdu. Bu cür miflərin nəticəsində əlilliyi olan insanlar qorxulu, damğalanmış, cəmiyyətdən uzaqlaşdırılmış, istismara məruz qalmış və ya hətta məhkum edilmişdirlər. Onlar "fərqli" hesab olunur və bu fərqlilik mənfi şəkildə dəyərləndirilirdi. Əlillik bacarıqsızlıq kimi qəbul edilirdi və əlilliyi olan insanlar ailələri və cəmiyyət üçün yük sayılırdı.

Həyatda qalmaq üçün təhlükədən qaçmağın və ya qida əldə etməyin zəruri olduğu cəmiyyətlərdə, əlilliyi olan uşaqlar və böyüklər çox vaxt tərk edilirdi. Bəzi cəmiyyətlərdə əlilliyi olan şəxslər küçədə dilənməyə məcbur edilirdi, çünki onların başqa dəstək vasitələri yox idi və yalnız başqalarının mərhəmətinə ümid edə bilirdilər. Təəssüf ki, bu, hazırda bəzi ölkələrdə hələ də qalmaqdadır. Əlilliyi olan bir çox insanın başqa bir seçim imkanı yox idi və institusionalizasiya çox vaxt onların qayğı və qida əldə edə biləcəyi yeganə variant idi.

XVI əsrdə Martin Lüter və Jan Kalvin kimi xristian liderlər zehni geriliyi və digər əlillik növlərini şeytanın təsiri kimi qəbul edirdilər. Buna görə də, həmin dövrün dini liderləri tez-tez əlilliyi olan insanlara mənəvi və ya fiziki əzab verərək onların içindən pis ruhları çıxarmağa çalışırdılar (Thomas, 1957).

**Sənaye İnqilabı Dövrü**

Uğursuz iş və həyat şəraitinin əsasını təşkil edən Sənaye İnqilabı dövründə yeni çətinliklər ortaya çıxmış, bu isə əlillərin kateqoriyalaşdırılmasına səbəb olmuşdur. Çox sayda insan ağır şərtlər altında yaşamağa məcbur edilmişdir (Özgökçeler, Alper, 2010, s. 36). Daha yavaş, spontan və elastik metodlarla həyata keçirilən iş prosesindən, sürətli, nizam-intizam tələb edən və zaman alan istehsal normaları çərçivəsində qurulan fabrik rejiminə keçid əlillərə ciddi mənfi təsir göstərmişdir (Roulstone, Prideaux, 2012: 5). Bu dövrdə istehsala töhfə verə biləcəklərinə baxmayaraq, əlillər əmək bazarından kənarlaşdırılaraq marginallaşdırılmışdır (Özgökçeler, Alper, 2010, s. 36).

Əhalinin sistematik olaraq əlillər və qeyri-əlillər kimi ayrılmasına paralel olaraq, 18-ci əsrin yeni baxımevləri də öz xüsusiyyətlərini fabrik sistemindən götürməyə başlamışdır. İronik olaraq, sərt bir ayrılma mövcud olsa da, məkan və iqtisadi sistemlər bir-birindən təsirlənmişdir. Foucault və ondan sonra gələn radikal əlillik tədqiqatçıları (Finkelstein, Ryan və Thomas) intizamlı və nəzarətçi fabrik sisteminin baxımevləri və ruhi xəstəxanalar ilə əlaqəsini ortaya qoymuşdur. Həqiqətən də, həm fabrik sistemi, həm də yeni dövrün baxımevləri sənaye məntiqi ilə dəstəklənmiş, istehsal səmərəliliyinə mane ola biləcək uyğunsuz vərdişləri azaltmağa yönəlmişdir (Roulstone, Prideaux, 2012, p. 5).

**Sənaye İnqilabı ilə I Dünya Müharibəsi Arasındakı Dövr**

Sənaye İnqilabından sonra, XIX əsrə qədər əlillər və yoxsullar Avropanın müxtəlif ölkələrində müxtəlif qanunlarla qorunmuş, onların müalicə və baxımı dövlət tərəfindən qarşılanmağa başlanmışdır. Lakin kapitalizmin inkişafı, əlillər və yoxsulların işçi kimi qəbul edilməsinə gətirib çıxarmış və dövlət dəstəyi onların iş həyatına daxil edilməsi ilə davam etdirilmişdir. Digər işçilər kimi olduqca ağır və çətin şərtlər altında çalışdırılan əlillər və yoxsullar, əsasən əl əməyi tələb edən və sadə istehsal işlərində istifadə edilmişdir (Çarkçı, 2011, s. 18).

Avropa ölkələri xüsusilə XIX əsrin sonlarına doğru əlillərin təhsilini dövlət məsuliyyəti kimi qəbul edilməyə başlanmışdır (Demirci-Akyol, 2013, s. 35). Eyni zamanda, Avropada əlillərə verilən

maaşların institutlaşdırılması da XIX əsrin ortalarında həyata keçirilmişdir (Demirci-Akyol, 2013, s. 39). Lakin XIX əsrin sonlarında Qərbdə sosial darvinizmin yayılması əlillərə göstərilən baxım, müalicə və təhsil müəssisələrinə mənfi təsir göstərmişdir. Sosial darvinizmə görə, zəif fərdlər təbii seleksiya nəticəsində yox olur (Köse, 2014, s. 88). Darvin, bu fikirləri Malthusun əhali artımı ilə bağlı yazdığı essedən götürdüyünü qəbul edir. Malthusun nəzəriyyəsinə görə, əhali artımı ərzaq ehtiyatlarına təzyiq göstərir və aclıq təhlükəsi yaradır. **Malthusun bu fikri** ən əlverişli, bacarıqlı, çalışqan və ağıllı insanların həyatda qalacağını iddia etmiş, Darwin tərəfindən isə bioloji dünyaya tətbiq edilmişdir (Whitfield, 2008, p. 268). Eyni dövrdə, fiziki və ruhi pozğunluqlar ilə cinayət, işsizlik və digər sosial problemlər arasında genetik əlaqələr olduğuna dair bir sıra miflər formalaşdırılmışdır. Üstün irqin islah edilməsi və sterilizasiyası ayrı-seçkiliyi zirvəyə çatdırmışdır. İngilislər qüsurlu reproduksiyanın qarşısını almaq üçün yarışa girişmişdilər. Əlillərin üstün irqin yaranmasına mane olduğunu düşünənlər, onların həyat müddəti baxımından ayrı-seçkiliyə məruz qalması üçün 1896-cı ildə "Baxım və Nəzarət üzrə Milli Birlik" adlı bir təzyiq qrupu yaratmışdır (Köse, 2014, s. 88).

**Dünya Müharibələrindən Sonrakı Dövr**

Əlillik məsələsinin beynəlxalq gündəmə çevrilməsi, Dünya Müharibələri sonrası əlil əhalinin əhəmiyyətli dərəcədə artması ilə reallaşmışdır. Sənayeləşmənin yüksəlişi, XX əsrin əvvəllərində əlillik mövzusunda cəmiyyətin daha çox məlumatlanmasına xidmət etmişdir. Sənaye qəzaları və ya peşə riskləri fiziki əlilliyi artan bir sosial narahatlıq halına gətirmişdir. 1900-cü illərin əvvəllərində ABŞ-da işləyən əhalidən beş yüz mindən çox insan işlərinin nəticəsi olaraq fiziki əlil olmuş, hər il bu rəqəmə on dörd mindən çox insan əlavə olunmuşdur (Akçalı, 2015, s. 18).

Bu dövrdə, inkişaf edən həmkarlar ittifaqları və işçi hüquqlarını müdafiə edən qruplar əlillərə kompensasiya verilməsi üçün təzyiq göstərmişdir. 1920-ci ildə ABŞ-ın demək olar ki, bütün ştatları kompensasiya qanunları qəbul etmişdir. I Dünya Müharibəsi fiziki əlilliyə diqqəti yönəldərkən, yüz iyirmi üç mindən çox amerikalı müharibədən fiziki əlilliklə geri dönmüşdür. Avropada isə əlil insanların sayı daha çox olmuşdur. Məsələn, Almaniya müharibənin bitməsindən on il sonra yeddi yüz əlli mindən çox müharibə qazisinə maaş ödəyirdi (Jaeger, Bowman, 2005, p. 38).

I Dünya Müharibəsi sonrası ABŞ müharibə qazilərinə reabilitasiya imkanları təqdim etmişdir. Bununla dövlətin dəstəyi ilə bir çox texnoloji yeniliklər həyata keçirilmiş, əlillərin özünəinam və özünü təminetmə hissləri gücləndirilmişdir (Akçalı, 2015, s. 18). Müharibə zamanı gənclərin cəbhəyə göndərilməsi və işçi qüvvəsi çatışmazlığı nəticəsində istehsalın davam etməsi üçün əlillər iş qüvvəsi kimi qəbul edilmişdir. Bu, əlillərin məşğulluğu sahəsində mühüm irəliləyişlərin başlanğıcı olmuşdur. Müharibələrin əsasən inkişaf etmiş ölkələrdə baş verməsi əlilliyi daha çox görünən hala gətirmişdir (Gökmen, 2007, s. 1093).

II Dünya Müharibəsi sonrası "inteqrasiya" və "normallaşdırma" anlayışlarının yüksəlişi ilə yeni bir fikir formalaşmış və nəticədə müharibədən çıxmış ölkələrdə yaranan işçi qüvvəsi çatışmazlığı əlil fərdlərlə kompensasiya edilmişdir. Əlillərin bacarıqlarının dərk edilməsi ilə reabilitasiya daha da əhəmiyyət qazanmışdır (Çarkçı, 2011, s. 30). Peşə reabilitasiyası və texniki təhsilin vacibliyi isə əlillərin işləyə biləcəyi sahələrin müəyyən edilməsi ilə ortaya çıxmışdır. II Dünya Müharibəsi qazilərinin reabilitasiyadan əlavə uzunmüddətli rifah üçün təzyiq göstərməsi, əlil hüquqları sahəsində irəliləyişlərə səbəb olmuşdur (Akçalı, 2015, s. 19).

Dövrün başqa bir mühüm hadisəsi isə **Nazi Soyqırımı** olmuşdur. Almaniyada Nazi hökuməti 1930-1940-cı illərdə "faydasız yeyicilər" (useless eaters) adlandırdığı əlillər və bir sıra etnik qruplara qarşı soyqırımı həyata keçirmişdir (Heyer, 2015, p. 90). Müxtəlif qanunlarla əlillərin cəmiyyət həyatından təcrid edilməsinə yönəlik siyasət aparılmışdır (Çarkçı, 2011, s. 22).

Məsələn, Hitler dövrü Almaniyasında 1933-cü ildə qəbul edilən bir qanuna əsasən, zehni və ya fiziki əlillərin bu vəziyyətlərini genetik olaraq gələcək nəsillərə ötürməmələri üçün uşaq sahibi olmaları qadağan edilmişdir. Bu qanunla manik-depressiv, şizofren, epilepsiya xəstələri, anadangəlmə görmə və eşitmə qüsuru olanlar, alkoqoliklər və digər əlil qruplar nəzarət altına alınmışdır. Bəzi peşə sahiblərinə (xüsusilə diş həkimlərinə, tibb bacılarına, masajçılara, mamalara və həkimlərə) bu vəziyyətləri aşkar etdikdə dövlətə məlumat vermək məcburiyyəti qoyulmuşdur.

II Dünya Müharibəsi illərində isə fərqli etnik qruplara mənsub milyonlarla yaşlı və əlil insan, hətta Alman irqindən olan təxminən iki yüz yetmiş min alman və avstriyalı öldürülmüşdür (Çarkçı, 2011, s. 23; Kökkaya, 2006, s. 17). Hitler'in sağlam bir nəsil yaratmaq xəyallarına uyğun gəlməyən əlillər orta əsrlərdə olduğu kimi daha az xərc tələb edən üsullarla – krematoriyalarda yandırılaraq – məhv edilmişdir (Kolat, 2009, p. 30). Almaniyada Nazilərin əlilləri ilk dəfə öldürdükləri illərdə, digər Qərb ölkələrində də əlillərə qarşı insan ləyaqətinə zidd tətbiqlər həyata keçirilirdi; bu, öldürülən əlillərə hesab sorulmayacağı gerçəyini ortaya qoymuşdur (Çarkçı, 2011, s. 65). Digər tərəfdən, kütləvi eutanasiyanın tətbiqindən sonra İngiltərə, Avropa ölkələri və ABŞ kimi inkişaf etmiş ölkələrin siyasətlərində daha yumşaq yanaşmalar olduğu bildirilməkdədir. Bu yanaşmanın; dövlət, könüllü təşkilatlar və artan sayda peşəkar yardımsevərlərin təmin etdiyi xidmətlər vasitəsilə, ənənəvi əlillik anlayışındakı boşluğu tamamlayan cəmiyyət əsaslı bir yayılmaya səbəb olduğu deyilir (Barnes, 2012, p. 13).

18-ci və 19-cu əsrlərdə müxtəlif yardım qurumlarının ianələri və fərdi ianələrlə reabilitasiya mərkəzləri, məktəblər və kitabxanalar kimi təhsil və mədəniyyət sahələrində fəaliyyətlər həyata keçirilsə də, 1950-ci illərə qədər əlil şəxslər qanuni hüquq sahibi olmamış və qorunmamışlar. ABŞ-da həyata keçirilən İnsan Hüquqları Hərəkatına qədər əlillər cəmiyyətə fayda verməyən, uyğunlaşmayan, faciəvi və acınacaqlı varlıqlar olaraq görülürdü. İradəsiz və anormal sayılan bir çox əlil, cəmiyyətdən kənarlaşdırılmaq məqsədilə karantin altına alınaraq bütün həyatlarını burada keçirəcəkləri bir institutda yerləşdirilmişdir (Akçalı, 2015, s. 18). Ədalətli sosial dəstək əldə edə bilməyən əlillər, təəssüf ki, 20-ci əsrin sonlarına qədər, çox vaxt istənməyən və vəziyyətləri ilə əlaqəsiz şəkildə təcrid edici bir təsnifata məruz qalmışdırlar. Məsələn, 20-ci əsrin əvvəllərində Qərb dünyasında əlil uşaqlarını normaldan fərqli insan və ya heyvanların sərgiləndiyi "freak shows" adlı tədbirlər və ya sirkə satan valideynlərə rast gəlmək mümkün idi (Jaeger, Bowman, 2005, p. 39).

10 dekabr 1948-ci il Parisdə Birləmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən Ümumdünya İnsan Hüquqları Bəyannaməsi qəbul edilmiş və əsas insan hüquqlarının ümumdünya miqyasında qorunmasını təsbit etmişdir. 1950-ci illərdə cəmiyyətlərdə demokratiya və insan hüquqları məsələlərinə diqqət ayrılmağa başlanması ilə (Çarkçı, 2011, s. 30), əlillik anlayışı beynəlxalq səviyyədə daha çox müzakirə edilən bir problemə çevrilmişdir (Özgökçeler, Alper, 2010, s. 36). İnkişaf etmiş ölkələrdə, əlil fərdlərin cəmiyyətə uyğunlaşmalarını təmin etmək məqsədilə, əlillərin cəmiyyətdə digər insanlarla bərabər hüquqlara malik olduğu və əsas hüquqlardan yararlanması gərəkdiyi barədə müxtəlif tədbirlər alınmışdır (Çarkçı, 2011, s. 30). İngiltərə və ABŞ kimi bəzi inkişaf etmiş ölkələrdə 1960-cı illərin sonlarına doğru əlillərə yönəlmiş təşkilatlar "əlilliyi" yenidən tərif etməyə başlamışdır. Bu illərə qədər tibbi bir yanaşma ilə ələ alınan əlillik, bu illərdən sonra sosial yönü vurğulanaraq ələ alınmağa başlanmışdır. Yeni yanaşma sosial model olaraq adlandırılmış və ABŞ, Fransa, İngiltərə kimi inkişaf etmiş ölkələrin və beynəlxalq təşkilatların (xüsusilə BMT və ona bağlı qurumların) əlillərə dair siyasətlərinə də yansımıştır (Çarkçı, 2011, s. 31).

Əlillərə yönələn yanaşma, tutum və tətbiqləri dəyişdirən akademik bir amil isə əlillik tədqiqatlarıdır. Əlillik tədqiqatları, əlilliyin funksionallığı baxımından məntiqi əsaslara müvafiq olaraq ortaya çıxmışdır (Linton, 1998, p. 2). 2006-cı ildə BMT-nin "Əlillərin Hüquqları Konvensiyası" qəbul edilərək, əlil şəxslərin hüquqlarını qorumağa yönəlmiş beynəlxalq bir çərçivə yaradılmışdır. Əlil Hüquqları Hərəkatı ilə əlillərin rollarında və dövlət siyasətlərində əhəmiyyətli bir dəyişiklik baş vermişdir (Kimberlin, 2009, p. 26). Əlil Hüquqları Hərəkatı sonrası həyata keçirilən akademik kəşflər və təşəbbüslər, əlilliyi sosial, siyasi və mədəni bir hadisə olaraq dərk edən yeni bir paradigma ilə nəticələnmişdir. Əlilliyin tibbi tərəfləri ilə ələ alınmasından daha çox, əlilliyin əsaslı tərəfləri olaraq sosial və siyasi əhəmiyyətini vurğulayan yeni bir çərçivə çəkmək, şübhəsiz, müasir sosial siyasət baxımından vacib bir addım olmuşdur.

## Nəticə

Bu araşdırmada əlillərin Qərb tarixində çox uzun bir dövrdə inkar edilmiş, xaric edilmiş, istismar edilmiş və son dərəcə insana qarşı olan münasibətlərə məruz qalmışdır. Sənaye İnqilabından 21-ci əsrə

qədər Qərb dünyasında əlillik mövzusu müzakirə edilmişdir. Sözügedən dövrdə əlillərə qarşı münasibət, tutumlar və tətbiqlər, həmçinin əlillər üçün görülən işlər, qurulan müəssisələr və yaranan hərəkatlar araşdırılmış, əlillərə yönəlik inkişaflar və yanaşmalar təqdim edilmişdir. Müharibələr, yayılan Darvinizm fikri və həyata keçirilən soyqırımlar, müharibə ilə əlaqədar əlil əhaliyə işçi qüvvəsi olaraq ehtiyacın artması əlillərin vəziyyətini daha da pisləşdirmişdir. Sənaye İnqilabı və Dünya Müharibələri əsas alınaraq dövrlər üzrə araşdırılmışdır. Bu yanaşma və tətbiqlərin dəyişməyə başlaması isə gözlənildiyinin əksinə, nisbətən yaxın tariximizdə, 20-ci əsrin ikinci yarısında baş vermişdir. Qərb dünyasında qəbul olunan Ümumdünya İnsan Hüquqları Bəyannaməsindən sonra əlillərə yanaşma tamamilə dəyişməyə başlamışdır.

## Ədəbiyyat


1. Akçalı, S. (2015). *Əlçatanlıq çərçivəsində gözdən əlillər üçün nəzərdə tutulmuş məkanların təhlili: Gözdən əlillər üçün kitabxanalar [Nəşr olunmamış magistr dissertasiyası].* Dokuz Eylül Universiteti Elm İnstitutu.
2. Barnes, C. (2012). *Understanding the social model of disability: Past, present and future.* In A. Roulstone, C. Thomas, N.Watson (Eds.), Routledge handbook of disability studies, 12-29. Routledge.
3. Çarkçı, S. (2011). *Əlillərin peşə hazırlığı və məşğulluğu [Nəşr olunmamış magistr dissertasiyası]. [Universitetin adı yoxdur].* Sosial Elmlər İnstitutu, İstanbul.
4. Dəmirçi Akyol, E. (2013). *Sultan II. Əbdülhəmid dövründə sosial siyasət tətbiqləri.* Journal of Social Policy Studies, 13(31), 33-47.
5. Heyer, K. (2015). *Rights enabled: The disability revolution, from the US, to Germany and Japan, to the United Nations.* University of Michigan Press.
6. Jaeger, P.T., Bowman, C. A. (2005). *Understanding disability: Inclusion, access, diversity and civil rights.* Praeger Publishers.
7. Kimberlin, S. E. (2009). *Political science theory and disability.* Journal of Human Behavior in the Social Environment, 19, 26-43.
8. Kokkaya, Z. (2006). *Avropa Birliyinə gedən yolda Türkiyədə əlillərin iqtisadi və sosial hüquqları [Nəşr olunmamış magistr dissertasiyası].* Bilgi Universiteti, Sosial Elmlər İnstitutu, İstanbul.
9. Kose, H. (2014). *Əlillərin xronoloji tarixi və təhsili.* Əlillər üçün təhsilin tarixi inkişafı, 56-100. İstanbul Təhsil Nazirliyi Nəşrləri.
10. Linton, S. (1998). *Claiming disability: Knowledge and identity.* New York University Press.
11. Özgökçeler, S., Alper, Y. (2010). *Əlillik Qanununun sosial model baxımından qiymətləndirilməsi.* Journal of Business and Economics Research, 1(1), 33-54.
12. Roulstone, A., Prideaux, S. (2012). *Understanding disability policy.* The Policy Press.
13. Whitfield, P. (2008). *Qərb elmində dönüş nöqtələri: Tarixdən əvvəlki dövrlərdən atom dövrünə qədər (S.Uslu, Trans.).* Kür nəşrləri.


Daxil oldu: 11.12.2024
Qəbul edildi: 16.03.2025